

# XALQIMIZ TARİXİ UĞURLARA İMZA ATIR

## 11 aprel 2018-ci ildə keçirilən prezident seçkilərindən ötən 4 ildə ölkəmiz böyük yüksəliş və zəfər mərhələsini yaşadı

(əvvəli 1-ci səhifədə)

2018-ci ildə Azərbaycan xalqı cənab Prezident İlham Əliyevə səs verməklə ölkədə aparılan demokratik islahatlara səs vermiş oldu.

Cənab Prezident hələ Dövlət Neft Şirkətində Birinci vitse-prezident, Milli Məclisin deputatı kimi Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, həmin Assambleyanın sədrinin müavini, Milli Olimpiya Komitəsinin Prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini kimi mühüm vəzifələrdə fəaliyyət göstərərkən, daim bir amala - doğma Vətənin dirçəlişinə və tərəqqisinə, milli maraqlara xidmət edib. Xalqın İlham Əliyevə yüksək etimadının təməlində məhz bu dəyişməz mövqe dayanır.

Son seçkilərdə qələbə qazandıqdan sonra dövlət başçısı cənab İlham Əliyevin imzaladığı 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrası olaraq, şəhidlərimizin vərəsələrinə ödəmə verilməsi nəzərdə tutulmuşdu ki, bu məqsədlə 135 milyon manat vəsait ayrılmışdı.

Şəhid ailələri ilə görüşdə şəhid ailələrinə diqqət və qayğı göstərilməsinin onun fəaliyyətində daim prioritet təşkil etdiyini vurğulayan Prezident İlham Əliyev bundan iki gün sonra imzaladığı 30 yanvar 2019-cu il tarixli Fərmanla şəhid ailəsi üçün Prezidentin aylıq təqaüdünün 242 manatdan 300 manata, eləcə də Əfqanıstanda şəhid olanların ailələri üçün Prezident təqaüdünün 21 fevral 2019-cu il tarixli Fərmanla 220 manatdan 300 manata çatdırılmasını təmin etdi.

"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır", - deyə bəyan edən Prezident cənab İlham Əliyevin bu sözləri onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb.

Azərbaycan daim dünyada siyasi sabitliyin, tərəqqinin, qlobal təşəbbüslərin, tolerantlığın ünvanı kimi tanınır. Dövlətimizin başçısının milli maraqlara və qarşılıqlı etimada əsaslanan müstəqil siyasət kursu ölkəmizi dünyada etibarlı tərəfdaş kimi tanıdıb, ona böyük nüfuz qazandırıb. Təsadüfi deyil ki, inkişaf etmiş dövlətlərin sırasında layiqli yer tutan Azərbaycan 2011-ci ildə 155 ölkənin etimadını qazanaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdi. Bu böyük tarixi uğur Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzunun, daim yüksələn statusunun göstəricisi idi. BMT Baş Assambleyasından sonra ikinci ən böyük təsisat olan Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycanın 2019-2022-ci illər üçün bu təşkilatın sədri seçilməsi də regional və beynəlxalq arenada söz sahibi kimi qəbul edilməsinin nəticəsidir. Cənab Prezidentin təşəbbüsü ilə bu il noyabr ayının 28-də Madrid şəhərində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis edilməsi Azərbaycanın artan beynəlxalq nüfuzunun daha bir sübutudur.

44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz tarixi Zəfər ölkəmizi təkcə qədim tarixə və mədəniyyətə, dayanıqlı milli ənənələrə, güclü iqtisadiyyata malik olan bir məmləkət deyil, həm də tarixin zərurətindən irəli gələn məqamlarda öz Lideri ətrafında sıx birləşən, müqəddəs amallar uğrunda canından belə keçməyə hazır olan xalq olduğunu göstərdi. Milli və dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaş dövlət başçısının bircə çağırışı ilə özünü müharibənin alovuna atdı, ailəsini, əzizlərini bu dövlətə əmanət qoydu və itirilmiş ərazi bütövlüyünü bərpa etdi, qalib xalq kimi tanındı. Bunu öz Liderinə, dövlətinə güvənən, Vətəninə ürəyi sonsuz məhəbbətlə döyünən xalq edə bilərdi və etdi.

Tarixi baxımdan olduqca qısa müddət ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərin və uğurların səbəblərinin araşdırılması, respublikamızın məhz özünəməxsus inkişaf strategiyasının və modelinin nəzəri-konseptual dərki və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi təkcə Azərbaycan üçün deyil, inkişafa, tərəqqiyə, demokratiya prinsiplərinin bərqərar olmasına can atan bütün ölkələr üçün böyük əhəmiyyət kəsb edir.

Ötən 18 ildən artıq bir dövrdə Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Möhtərəm Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqımızı daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaqdır.

**Emin QASIMOV, "Respublika".**